AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin
____ nömrəli ___ ___ 2020-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir.

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050211 – Psixologiya**

BAKI – 2020

Scanned with CamScanner

## BAKALAVRİAT SƏVİYYƏSİNİN 050211 – Psixologiya İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

### 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050211 – Psixologiya"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050211 – Psixologiya"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;

Scanned with CamScanner

- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklkləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

**2.2 *Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

- Psixologiya sahəsində əsas konsepsiyalar, prinsiplər və önəmli olan mövzuları dərindən mənimsəmək;
- Davranışı izah etmək və proqnozlaşdırmaq məqsədi ilə müvafiq nəzəriyyələrdən istifadə edərək onları qiymətləndirmə, üstün və çatışmayan cəhətləri müəyyən etmə bacarığına sahib olmaq;
- Davranış və psixi proseslərin dəyişkənliyi və fasiləsizliyi haqqında bilik əldə etmək;

Scanned with CamScanner

- Fərdi fərqlərə (misal üçün, şəxsi keyfiyyətlər, bacarıqlar və s.) təsir edən social, mədəni və beynəlxalq amilləri təhlil etmək;
- Psixologiya ilə digər elm sahələrini müqayisə etmək, psixologiyanın fənlərarası (interdissiplinar) əməkdaşlıqda potensial töhfəsini təhlil və müəyyən edə bilmək;
- Psixologiyanın məzmun sahələri üzrə aktual biliyi inkişaf etdirmək və bunları müvafiq şəkildə tətbiq etmə bacarığını əldə etmək;
- Psixologiya tarixinin əsas inkişaf mərhələləri, görkəmli psixoloqlar, qoyulan əsas suallar, istifadə olunan üsullar və nəzəri mübahisələri ümumiləşdirimək bacarığına yiyələnmək;
- Sosial mədəni və beynəlxalq amillərin davranış və psixi proseslər haqqında alimlərin düşüncələrinə təsirini proqnozlaşdırmaq;
- Psixologiyanın tətbiqi sahələrini təhlil etmək;
- Psixoloji prinsiplərin sosial problemlərin izah olunmasında, sosial tələbatların qarşılanmasında və ictimai siyasətdə istifadəsini təhlil etməyi bacarmaq;
- İdrakla cismin qarşılıqlı əlagəsinin psixoloji və fiziki sağlamlığa təsirini dəyərləndirmək;
- Şəxsiyyətlərarası və mədəniyyətlərarası münagişələrin başa düşülməsində və həll olunmasında psixoloji bilikləri geniş tətbiq etmə bacarığını əldə etmək;
- Tətbiqi sahələrdə (misal üçün, kliniki sahə, məktəb, icma və ya sənaye sahələri) müvafiq psixoloji müdaxilələri mənmsəmək və tətbiq edə bilmək;
- Psixoloji fenomenləri interpretasiya edərkən elmi arqumentasiyadan istifadə etmə bacarığına yiyələnmək;
- Davranış fenomenini izah edərkən istifadə olunan nəzəriyyələrin dəyəri və çatışmayan cəhətləri haqqında bilik və tənqidi baxışı inkişaf etdirmək;
- Düşüncə prosesi zamanı tədqiqatın nəticələrinin və proqnozların dəqiqliyinə təsir edən ümumi xətaları minimuma çatdırmaq üçün müvafiq strategiyalar haqqında əsaslı biliyə sahib olmaq və bunları tətbiq etmək bacarığına yiyələnmək;
- Psixoloji problemləri/sualları ünvanlamaq məqsədi ilə müvafiq mənbələrdən istifadə strategiyasından səmərəli şəkildə istifadə etmək (missal üçün, məlumat bazası, etibarlı elmi jurnallar və s.);
- Müxtəlif psixoloji informasiya mənbələrinin xüsusiyyətlərini və dəyərini təhlil etmək bacarığını əldə etməkr;
- Psixoloji məlumatı onun etibarlılığına, mötəbərliliyinə və ümumiləşdirilməsinə əsaslanaraq qiymətləndirmə bacarığını inkişaf etdirmək;
- Psixoloji problemləri empirik olaraq tədqiq etmək üçün onların ölçülə bilən dəyişənlərlə əvəz olunması sahəsində bilik və bacarıqlara yiyələnmək;
- Psixoloji problemin həlli üçün seçilmiş strategiyanın səmərəliliyini dəyərləndirmək bacarığını inkişaf etdirmək;
- Sadə psixoloji tədqiqatın hazırlanması, həyata keçirilməsi və nəticələrin interpretasiyası üzrə bilik və tətbiqi bacarıqlar əldə etmək;
- Psixoloji tədqiqatın mövzusu üçün istifadə olunacaq kəmiyyət və keyfiyyət tədqiqat üsullarının səmərəliliyini dəyərləndirmək;
- Səbəb-nəticə əlaqələrinə alternativ izahları istisna edən tədqiqat strategiyalarıı məhdudlaşdırmaq;
- Mövcud olan və təklif olunan psixoloji tədqiqat layihələrində əsas tədqiqat konsepsiyasını dəqiqliklə müəyyən etmək;

Scanned with CamScanner

- Fərziyyəni yoxlamaq məqsədi ilə tədqiqat hazırlayaraq həyata keçirmək bacarığına yiyələnmək;
- Psixoloji tədqiqatın nəticələrinin etibarlılığı və mötəbərliliyini təmin etmək məqsədi ilə yüksək səviyyəli ölçü strategiaylarını hazırlayarq tətbiq etmək;
- Müəyyən bir psixoloji fərziyyəni təsdiqləmək və ya təkzib etmək məqsədi ilə keyfiyyət və/və ya kəmiyyət üsullarından istifadə etmə bacarığını əldə etmək;
- Sosial mədəni, nəzəri və şəxsi qərəzlərin psixoloji tədqiqata sistemli təsirini başa düşmək və psixoloji tədqiqatda tədqiqatçıların bunları nə qədər səmərəli ünvanladıqlarını dəyərləndirmək üzrə biliklər əldə etmək;
- Sosial mədəni amilləri səmərəli şəkildə ifadə edən psixoloji tədqiqat hazırlamaq;
- Psixoloji tədqiqatın dizaynına əsaslanaraq nəticələrinin ümumiləşdirilməsini dəyərləndirmək üzrə bilik və bacarıqlar əldə etmək;
- Psixologiya elmi və bu sahədə olan təcrübənin qiymətləndirilməsində etik standartlar və onların tətbiqi üzrə bilik və bacarıqlar əldə etmək;
- Yerli, milli və qlobal səviyyələrdə cəmiyyətlərin/sosial-siyasi qrupların inkişafına töhvə verən dəyərlərin formalaşdırılmasının psixoloji əsasları haqqında əsaslı bilik əldə etmək;
- Diskriminasiya təcrübəsinin azaldılmasına töhfə verəcək və sosial dəyişiklikləri asanlaşdıracaq psixoloji strategiyalar üzrə bilik və tətbiqi vacarıqları inkişaf etdirmək;
- Psixoloji müdaxilələrin qlobal problemlərin həll olunmasında potensial/mümkün olan təsirini təhlil etmək;
- Psixoloji prinsipləri ictimai siyasət məsələlərinə tətbiq edərək gözlənilən institusional faydaları və ya sosial dəyişiklikliyi təsvir etmək;
- Elmə əsaslanan psixoloji konsepsiya və nəzəriyyələrdən istifadə edərək aydın və yığcam arqument formalaşdırmaq;
- Fərqli/müxəlif mənşəli insanlarla səmərəli ünsiyyəti rahat qurmaq üçün psixoloji konsepsiyalardan istifadə etmək;
- Müxtəlif bacarıqlara malik olan, müxtəlif mənşə və mədəni perspektivlərdən olan insanlarla həssas ünsiyyət qurmaq;
- Psixoloji bilik və bacarıqları karyera məqsədlərinə tətbiq etmək;
- Potensial iş yerində yaranacaq mümkün problemlərin həllinin tapılmasına səmərəli şəkildə yardım etmək məqsədi ilə problem həll etmə və psixoloji tədqiqat üsullarını təhlil etmək;
- Psixologiya ixtisası üzrə təhsil zamanı əldə olunmuş biliklər üzrə savadlılıq bacarıqlarını müxtəlif problemlərin həlli yollarının araşdırılmasına uyğunlaşdırmaq bacarığını əldə etmək;
- Psixologiya sahəsində olan etik prinsipləri qeyri-psixologiya sahələrində tətbiq etmək;
- Öz düşüncə prosesinə diqqət yetirərək onun keyfiyyətinə nəzarət etmək (metakoqnitiv strategiyalardan istifadə edərək uyğunlaşmalar etmək);
- Psixologiya sahəsində işə götürənlərin gözləntilərinə cavab verən bacarıqlara yiyələnmək;

  - Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma

Scanned with CamScanner

strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq;

- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək;
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq;
- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq;

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050211 – Psixologiya"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS Krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən | 6 |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| | edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| | **İxtisas fənləri** | 120 |
| 5 | **Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) əsasları; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühitində fəaliyyət göstərmək üçün lazım olan alətlər və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının əsas prinsipləri (kodlaşdırılması, saxlanması, ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri, müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron həyat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.); informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya və kiber təhlükəsizlik;<br>Müasir əməliyyat sistemləri (ƏS) və onların iş prinsipi; Əməliyyat sistemlərində faylların idarə olunması;<br>Proqramlaşdırmanın əsasları;<br>Şəbəkələşmə;Veb sistemləri və texnologiyaları;<br>Veb səhifələrin hazırlanması (HTML kodları və WYSIWYG redaktorlar);<br>Süni intellekt sistemləri;<br>İnformasiya təhlükəsizliyi və ona nail olma yolları: şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması və icazəsiz istifadəsinin qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək, antiviruslar və s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb | 3 |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| | (ixtisas üzrə) cədvəllərin qurulması, hesablamaların aparılması və s., Təqdimatların hazırlanması, PDF faylların hazırlanması və redaktəsi, Teams proqramı və s. proqramların (tətbiqi proqramların) imkanlarından istifadə;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarətmə sistemləri (VBİS) və onun imkanları öyrədilir. | |
| 6 | **Mərkəzi sinir sisteminin (MSS) anatomiyası və fiziologiyası**<br>Mərkəzi sinir sisteminin anatomisyası tədris olunarkən tələbələrə hüceyrələr, toxumlar və ayrı-ayrı orqanlar arasında qarşılıqlı əlaqələrin yaradılmasının orqanizmin tamlığını təmin etməsində rolu təqdim olunur. Tələbələr mərkəzi sinir sisteminin orqanizmdə gedən prosesləri tənzimləyərək və orqanların işinə istiqamət verərək orqanizmin bütün fəaliyyətlərini nəzarət altında saxlamasını öyrənirlər. MSS-nin funksional vəziyyətinin orqanizmlə xarici mühit arasındakı əlaqəyə təsiri araşdırılır. MSS afferent impulsları qəbul edir, analiz və sintez edir, efferent impulsları formalaşdırır və onların təsiri ilə orqanların fəaliyyətini bu və ya digər istiqamətə yönəldir. O, həmçinin mühitin dəyişikliklərinə və təsirlərinə qarşı bütöv orqanizmin uyğunlaşma reaksiyalarını formalaşdırır. Mərkəzi sinir sisteminin müxtəlif şöbələri haqqında biliklər təqdim olunur: onurğa beyin, baş beyin, arxa beyin, orta beyin, beyincik, ara beyin, ön beyin. | 6 |
| 7 | **ASF və sensor sistemin fiziologiyası**<br>Ali sinir sistemi və sensor sistemin fiziologiyası fənni beyin haqqında təlimin əsas inkişaf sahələri, orqanizmin bir sıra mühüm həyati funksiyalarının sinir tənzimlənməsi, heyvan və insanda ali sinir fəaliyyətinin mürəkkəb davranış formalarını öyrədir. Buna əlavə olaraq, I və II siqnal sistemləri, insanın ali sinir fəaliyyətinin tipləri, xüsusiyyətləri, pozğunluqları, yuxu, motivasiya, emosiya, yaddaş, sensor sistemlər və onların funksiyası haqqında mövzuları təqdim edir. | 4 |
| 8 | **Psixologiyada riyazi və statistik metodlar**<br>Psixologiyada riyazi metodlar fənni çərçivəsində psixologiya elmində istifadə olunan statistik alətlər təqdim olunur. Bu fənn psixoloji fərziyyəni yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadəni öyrədir, həmçinin, eksperimental, kvazi-eksperimental və korrelyasiyalı tədqiqat dizaynlarının üstün və çatışmayan cəhətlərini araşdırmağa kömək edir. Hal-hazırda psixoloji məlumatların riyazi təhlilini verən kompyuter proqramlarının olmasını nəzərə alaraq bu fənnin tədrisi zamanı əsas diqqət SPSS, Stata kimi kompyuter proqramlarının mənimsənilməsinə, bu və ya digər statistik metodun öyrənilməsinə yetirilir. | 4 |
| 9 | **Ümumpsixoloji praktikum**<br>Ümumpsixoloji praktikum fənni praktik fənn olaraq tələbələrdə psixoloji tədqiqat üsulları sahəsində bilik və bacarıqlarını formalaşdırır. Fənnin tədrisi zamanı Ümumi Psixologiya fənni çərçivəsində tələbələrin əldə | 12 |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| | etdikləri nəzəri biliklər tətbiq olunur və tələbələr müstəgil tədqiqat prosesinə hazırlanırlar. | |
| 10 | **Ümumi psixologiya**<br>Bu fənn bloku psixologiya elminə girişdir. Psixi proseslər, psixi hallar, psixi xassələr və davranış haqqında biliklər təqdim olunacaq; psixologiya elminin digər elmlər sitemində yeri və əsas sahələri təqdim olunacaq; müasir psixologiya elminin prinsipləri və qarşısında duran problemlər və gələcək inkişaf perspektivləri araşdırılır; psixologiya tarixinin əsas mərhələləri, müasir psixologiyanın başlıca istiqamətləri, dünyada və Azərbaycanda psixoloji fikrin və elmi psixologiyanın inkişaf xüsusiyyətləri, psixologiyanın tədqiqat metodları və onların təsnifi öyrənilir.<br>Psixi proseslər (duyğu, qavrayış, hafizə, diqqət, təfəkkür, nitq) haqqında anlayışlar təqdim olunur. Psixi proseslərin insan həyatında rolu araşdırılır. Bu sahədə mövcud olan nəzəriyyələr təhlil edilir. Psixi proseslərin fizioloji əsasları öyrənilir. Emosiya və motivasiya mövzuları araşdırlır. Şəxsiyyətin inkişafı və formalaşdırılması zamanı sosial mühitin və qenetikanın rolu araşdırılır. Şəxsiyyət nəzəriyyələri təqdim olunur. Davranışın izah olunmasında bu nəzəriyyələrin əhəmiyyəti təhlil olunur.<br>1. Psixologiya giriş və psixologiya tarixi; 2. Duyğu və qavrayış psixologiyası; 3. Diqqət və hafizə psixologiyası; 4. Təfəkkür və nitq psixologiyası;5. Emosiya və motivasiya psixologiyası; 6. Təbiət və şəxsiyyət psixologiyası. | 34 |
| 11 | **Eksperimental psixologiya**<br>Eksperimental psixologiya fənni tətbiqi elm sahəsi olmaqla psixoloji tədqiqatın nəzəriyyə və praktikasının əsas məsələlərini və psixoloji metodlar sistemini öyrədir. Bu fənn istinad xarakterli olduğundan, onun öyrənilməsi tədris olunan digər psixoloji fənnlərin daha məzmunlu və yaradıcı planda mənimsənilməsi üçün əlverişli zəminin yaradılmasını təmin edir. Fənn çərçivəsində Eksperimental Psixologiyanın mahiyyəti, psixologiyanın digər sahələri ilə əlaqələri, psixoloji məlumatların və biliklərin növləri, eksperimental psixologiyanın əsas anlayışları (seçmə, etibarlılıq, mötəbərlilik, fərziyyə, psixoloji eksperiment, psixometriya, psixofizika və s.), Eksperimental psixologiyanın təşəkkül və inkişafının qısa tarixi-psixoloji səciyyəsi, psixologiya sahəsində eksperimental tədqiqatların növləri, mərhələləri, tədqiqatın planlaşdırılması və aparılması, eksperimental tədqiqatın nəticələrinin işlənməsi, ümumiləşdirilməsi və təhlili təqdim olunur. | 5 |
| 12 | **Psixofiziologiya**<br>Bu fənn psixofiziologiya elminin tarixini, biologiya ilə psixologiya elmləri arasında olan əlaqələri, cism və psixikanın qarşılıqlı əlagəsini təqdim edir. Psixofiziologiya elminin üsullarını, onların üstün və çatışmayan cəhətlərini araşdırır. Əsas psixi proseslərin fizioloji əsasları təqdim olunur. Funksional halların (yuxu, stress, ayıq olma) | 4 |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| | psixofiziologiyası, emosiyaların psixofiziologiyası, adaptasiya prosesinin psixofiziologiyası, intellekt və motivasiyanın psixofizioloji və psixoqenetik proqnozçuları, stressə dayanaqlılığın psixofizioloji əsasları və ekstremal situasiyalarda davranışın xüsusiyyətləri öyrənilir. | |
| 13 | **Klinik psixologiya**<br>Klinik psixologiya fənni psixoterapevtik müdaxilə strategiyalarını araşdıraraq psixoloji bilik və prinsiplərin psixi sağlamlıq sahəsində tətbiqi və Klinik psixologiyanın bir elm sahəsi kimi inkişafı tarixi öyrənilir. Fənnin tədrisi zamanı bir çox yanaşmalar (psixoanaliz, humanist terapiyası, koqnitiv davraniş və dialektik davranış terapiyası, stressin şüurlu idarə olunması, ailə terapiyası, art terapiya və s.) öyrənilir. Bu nəzəri yanaşmaların klinik psixoloqların işə yanaşmasına verdiyi istiqamət araşdırılır, bura qiymətləndirmənin keçirilməsi, qabaqlayıcı tədbirlərin və müdaxilələrin planlaşdırılması və həyata keçirilməsi, həmçinin tədqiqat sahəsi daxildir. Müdaxilə növlərini öyrənərkən tələbələrə ənənəvi klinik təcrübədən irəli gələn məsələlər təqdim olunur, bura etik qaydalar, psixi sağlamlıq siyasəti və iqtisadiyyatı, mədəniyyət əsaslı qərəzlər haqqında məlumat təqdim olunaraq müzakirə olunur. Klinik psixoloqların müxtəlif peşə rolları və çalışdıqları sahələr haqqında məlumat verilir. | 6 |
| 14 | **Pedaqoji psixologiya**<br>Pedaqoji psixologiya fənni çərçivəsində tələbələrin koqnitiv və affektiv ehtiyaclarını qarşılayacaq bir təhsil sistemi strukturunun necə yaradılmasını dərk etmək üzrə bilik və bacarıqlar təqdim olunur. Tələbələrə öyrənmə və inkişaf üzrə, səmərəli tədris üsulları və təhsil siyasəti və təcrübəsini qiymətləndirmək üzrə müxtəlif nəzəri biliklər təqdim olunacaq. Tədrisin və təhsil sisteminin sosial xüsusiyyətləri araşdırılacaq. Pedaqoji psixologiya fənni xarici mühitin öyrənmə prosesinə təsiri yollarını araşdıracaq. Təhsil sisteminə daxil olan tələbənin yeni mühitə, qaydalara, həmçinin öz bədən və düşüncələrində baş verən dəyiçikliklərə adaptasiya prosesi təhlil olunacaq. Pedaqoji psixologiya fənni bu dəyişiklikləri və onlara adaptasiya prosesini araşdıraraq tələbələrin nəzərinə çatdırır. Sosial, yerli, və ailə məsələlərinin öyrənmə prosesinə və sinif təcrübəsinə təsiri yolları araşdırlır. | 4 |
| 15 | **İnkişaf və yaş psixologiyası**<br>İnkişaf və yaş psixologiyası insan psixikasının inkişaf dinamikasını, şəxsiyyətin psixi prosesləri və psixi xassələrinin ontogenezinin inkişaf xüsusiyyətlərini öyrədir. İnsan hər bir yaş dövründə psixoloji və davranış xüsusiyyətlərinin həmin yaş dövrü üçün xarakterik olan və həmin dövrdən kənarda heç vaxt özünü göstərməyən birliyinə malik olduğunu izah edir. Fənn insanın psixiki inkişafının hərəkətverici qüvvələri, şəraiti və qanunauyğunluqlarını təhlil edir. Psixi inkişafın yaş dövrlərinin müəyyənləşdirilməsi prinsipləri təqdim olunur. Müəyyən yaş dövrünə | 5 |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| | spesefik olan əsas, aparıcı fəaliyyət növləri haqqında məlumat verilir. Davranışın intellektual, emosional və sosial aspektlərini ətraf mühitlə qenetika arasında mürəkkəb əlagələrin təsiri baxımından təhlil edir. Məzmuna insan inkişafı üzrə nəzəriyyələrin fərdin müxtəlif yaş dövrlərində inkişafına tətbiq olunması daxildir. Fənnin tədrisi zamanı insan davranışı sahəsində olan mühüm sahələrə (misal üçün, bağlılıq, aqressiya) nəzər salınır və tələbələrin insan inkişafı prosesini daha yaxşı mənimsəmələrinə nail olmaq məqsədi ilə bunlardan istifadə olunur. | |
| 16 | **Sosial psixologiya**<br>Sosial psixologiya fənni insanlarla onların xarici mühiti arasında olan qarşılıqlı münasibətlər, insanların qavrama prosesinə təsir edən sosial amillər və insanlar arası münasibətlər haqqında bilik və bacarıqlar öyrədir. Fərdin düşüncələrinə, hisslərinə və davranışlarına təsir edən sosial situasiyaların təsiri araşdırılır. Sosial psixologiya fənni şəxsdaxili (emosiyalar, sosial idrak, yönəliklik, "mən" anlayışı) və şəxslərarası (digərlərinə kömək etmə, aqressiya, qərəzli münasibət və ayrıseçkilik, cəlb etmə, qrup prosesləri və qruplar arası münasibətlər) səviyyələrdə baş verən prosesləri təhlil edir. Fənn tədris olunarkən sosial psixologiya sahəsində müxtəlif nəzəri baxışlar və tədqiqatlar təqdim olunaraq təhlil edilir. | 6 |
| 17 | **Hüquq psixologiyası**<br>Hüquq psixologiyası fənnin tədrisində bu sahədə psixoloji tədqiqatın metodoloji əsasları təqdim olunur, burada məhkəmə istintaqı prosesində sübutların tədqiqinin psixoloji əsasları, məhkəmə araşdırmasının mərhələlərinin psixoloji səciyyəsi öz əksini tapır. Eyni zamanda prokurorun və vəkilin məhkəmədəki fəaliyyətinin psixologiyası və onların nitqinin xüsusiyyətləri elmi cəhətdən araşdırılır. Cinayi davranışın qiymətləndirilməsinin psixoloji əsasları və cəzanın təyin edilməsi məsələlərində hakimin, dövlət ittihamçısının və vəkilin faliyyətinin kommunikativ və idrakı cəhətləri tədqiq edilir və onların şəxsi keyfiyyətləri, təfəkkür xüsusiyyətləri öyrənilir. | 5 |
| 18 | **Ailə psixologiyası**<br>Ailə psixologiyası fənni ailənin tərifi, psixoloji mahiyyəti, ailədaxili münasibətlərin strukturu, ailə tipləri haqqında məlumat təqdim edir. Bu fənn ailəyə təsir edən sosialmədəni amilləri və mühiti araşdırır. Ailənin şəxsiyyətin inkişafında və formalaşmasında rolu və əhəmiyyəti araşdırılır. Müxtəlif mədəniyyətlərdə ailənin formalaşmasına və fəaliyyətinə dair tədqiqatlar təhlil olunur. Ailənin müxtəlif inkişaf mərhələlərində ailədaxili münasibətlərin dəyişməsi, ailə üzvlərinin bu dəyişikliklərə uğurlu uyğunlaşmasını şərtləndirən amillər öyrənilir. Ailədə münagişəli münasibətlərin yaranma səbəbləri, buna töhfə verən amillər və təzahürlər təhlil olunur. Məişət əsaslı zorakılıq, onun yaranma səbəbləri və aradan qaldırılması yolları araşdırılır. | 5 |
| | **Menecment psixologiyası** | |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| 19 | Menecment psixologiyası fənni psixologiya elminin bir sahəsi kimi idarəetmə fəaliyyətinin psixoloji qanunauyğunluqlarınının öyrənilməsinə yönəlib. Menecment psixologiyası bazar sistemi şəraitində yaranan təşkilati problemlərin tədqiqi və psixoloji cəhətdən həllinin tapılmasını araşdırır. Bu fənn çərçivəsində maddi və hüquqi cəhətdən müstəgil olan təşkilatlarda fəaliyyət göstərən insanların davranışları öyrənilir. Fənn həmçinin menecerin səmərəli fəaliyyətini, fərdi və qrup şəklində qərarların qəbulunun xüsusiyyətlərini, liderliyi, motivləşdirməni, normaları, dəyərləri və s. şərtləndirən psixoloji amilləri təhlil edir. Menecment psixologiyası sahəsində araşdırılan məsələlər ənənəvi sosial-psixoloji məsələlərlə (liderlik, sosial psixoloji durum) yanaşı özündə əmək psixologiyasının məsələlərini (əmək fəaliyyətinin təhlili, əmək fəaliyyəti zamanı psixi hallar), ümumi psixologiyanın məsələlərini (şəxsiyyətin fəaliyyət nəzəriyyəsini, inkişaf) və s. ehtiva edir. | 4 |
| 20 | **Siyasi psixologiya**<br>Siyasi psixologiya fənni müasir siyasi psixologiya elminin inkişaf səviyyəsinə uyğun olan siyasi fəaliyyətin və siyasi şüurun mexanizmləri, qanunauyğunluqlarını öyrədir. Bu fənn siyasi psixologiya elminin klassik problemləri, müasir elmi məktəbləri, burada aparılan tədqiqatlarla yanaşı siyasi psixologiyanın mexanizmləri, tədqiqat metodları haqqında biliklər təqdim edir. Siyasət sahəsində şəxsi amillərin rolunu, siyasi liderlik anlayışını, siyasi liderin xüsusiyyətlərini, növlərini və funksiyalarını, kütləvi davranışın mexanizmlərini və formalarını, bu prosesdə emosiyaların rolu və əhəmiyyətini, siyasi kommunikasiyanın psixoloji xüsusiyyətlərini öyrədir. Siyası psixologiya fənni ümumi psixologiya və sosial psixologiya sahələrində mövcud olan biliklərdən istifadə edərək siyasi davranışı təhlil edir. Siyasi psixologiyada şəxsiyyət psixologiyasının, qrup probleminin, kütlələrin siyasətdə rolu, seçki kompaniyasının təşkilinin psixoloji mexanizmi araşdırılır. | 4 |
| 21 | **Biznes psixologiyası və sahibkarlıq**<br>Biznes psixologiyası və sahibkarlıq fənni müasir sahibkarlığın psixologiyasını öyrədərək insanların bazar sistemi şəraitinə konstruktiv adaptasiya prosesini araşdırır. Sahibkarlıq fəaliyyəti ilə məşqul olan şəxslərin psixoloji xüsusiyyətləri öyrənilir və sahibkarlıq fəaliyyəti özünüreallaşdırma və adaptasiya prosesi kimi təhlil olunur. Bu fənn özündə psixologiya elminin digər sahələrində (sosial psixologiya, şəxsiyyət psixologiyası, psixodiaqnostikanın əsasları, idarəetmə psixologiyas) olan bilik və bacarıqları cəmləşdirir. Fənn sahibkarlığın sosial-iqtisadi və psixoloji fenomen olaraq inkişafının psixoloji qanunauyğunluqlarını, müasir sahibkarın psixoloji xüsusiyyətlərini, sahibkarlıq fəaliyyə və gender məsələsi, şəxsiyyətin adaptasiyası və sahibkarlıq potensialının üzə çıxması və həyata keçirilməsi/reallaşdırılması, biznes sahəsində emosional səriştəliliyin meyarlarının üzə çıxarılması, sahibkarlıq fəaliyyətinin sosial-psixoloji | 3 |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| | aspektləri, işgüzar situasiyaların təhlili, şəxsi potensialın diaqnostikası kimi məsələlər üzrə biliklər və onların tətbiqi qaydalarını öyrədir. | |
| 22 | **Fəlsəfə**<br>Bu fənn təbiətin, cəmiyyətin və insan təfəkkürünün ən ümumi qanunları haqqında biliklər verir, dünyağörüşünün inkişafında mühüm yer tutur; fəlsəfənin məzmunu və xüsusiyyətləri, fəlsəfənin ictimai şüurun spesifik forması kimi özəllikləri ilə bağlı ümumi təsəvvür formalaşdırır; əsas fəlsəfi problemlər, fəlsəfi biliyin metodoloji rolu haqqında biliklər əldə olunamsına kömək edir; fəlsəfi təfəkkürü inkişaf etdirir. | 3 |
| 23 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. | **60** |
| | **Təcrübə** | **30** |
| | **Cəmi** | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

Scanned with CamScanner

etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

Scanned with CamScanner

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:*** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

Scanned with CamScanner

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **"050211 – Psixologiya"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri

Scanned with CamScanner

təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkdir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. "**050211 – Psixologiya**" ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə psixoloq-məsləhətçi, psixoloq-təlimçi, psixoloq-tərbiyəçi, psixoloq-tədqiqatçı/araşdırmaçı, olaraq fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə, həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində psixoloq-mütəxəssis olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. "**050211 – Psixologiya**" ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Təhsil" ixtisaslar qrupuna daxil olan "060118 Təhsildə sosial-psixoloji xidmət", "060116 Korreksiyaedici təlim", "060117 Məktəbəqədər təlim və tərbiyə", "060119 Pedoqogika", "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060209 Psixologiya", "060210 Sosiologiya", "060204 Jurnalistika"(müəyyən ixtisaslaşmalar üzrə), "060208 Politologiya" (bəzi ixtisaslaşmalar), "060216 Dövlət və ictimai münasibətlər", "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan "060408 Marketinq(sahələr üzrə)", "060407 Menecment"(bəzi ixtisaslaşmalar), "060409 Biznesin idarə edilməsi", "060410 Dövlət və bələdiyyə idarəetməsi"(bəzi ixtisaslaşmalar), "060411 Kommersiya"(Reklam işi), Səhiyyə, rifah və xidmət ixtisasları qrupuna daxil olan "060803 Turizm və otelçilik"(bəzi ixtisaslaşmalar), "060805 Sosial iş" Magistr proqramlarında davam etdirə bilərlər.

Scanned with CamScanner

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

| | |
|---|---|
| Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri | Humanitar və sosial ixtisaslar qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri |
| ___________________Yaqub Piriyev | __________________Fariz İsmayılzadə |
| "____" ______________2020-ci il | "____" _______________2020-ci il |

**Əlavə 1**

Scanned with CamScanner

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyər. etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1. Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| PTN 2. Psixologiya sahəsində informasiyanın qəbulu, saxlanılması, emal edilməsi, axtarışı və istifadəsi zamanı müasir informasiya texnologiyalarından istifadə etmək; psixoloji mənbələrin və məlumat bazalarının idarəolunması sahəsində müvafiq proqramlardan istifadə bacarıqlarını formalaşdırmaq; psixoloji tədqiqat zamanı əldə olunmuş məlumatın statistik təhlilini edə bilmək. |
| PTN 3. Psixi proseslərin fizioloji əsasları, ali sinir fəaliyyətinin strukturu, sensor sistemin fiziologiyası və onların funksiyaları üzrə nəzəri bilikləri insanın gündəlik həyatını, emosiyalarını, düşüncə prosesini və fəaliyyətini təhlil etmək üçün tətbiq etmək. |
| PTN 4. Empirik və analitik tədqiqat vərdişlərini inkişaf etdirmək; psixoloji tədqiqatın fərziyyəsini yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadə etmək; eksperimental, kvazi-eksperimental və korrelyasiyalı tədqiqat dizaynlarını müqayisəli şəkildə təhlil etmək; psixoloji tədqiqatı hazırlamaq, həyata keçirmək və əldə olunmuş məlumatları kəmiyyət və keyfiyyət üsullarından istifadə edərək təhlil etmək. |
| PTN 5. Qeyri-tipik (anormal) davranışın yaranma səbəblərini araşdıraraq müvafiq psixoloji müdaxilə istiqamətlərini müəyyən etmək; əhalinin psixi sağlamlığının təmin olunması sahəsində qabaqlayıcı (preventiv) tədbirlərin planlaşdırılması və həyata keçirilməsi üzrə tətbiqi bilik və bacarıqlar əldə etmək. |
| PTN 6. Öyrənmə və inkişaf üzrə, səmərəli tədris üsulları, təhsil siyasəti və təcrübəsini qiymətləndirmək üzrə müxtəlif nəzəri biliklər əldə etmək; tədrisin və təhsil sisteminin sosial xüsusiyyətləri, xarici mühitin öyrənmə prosesinə təsiri yollarını başa düşmək və bu bilikləri tələbə yeni mühitə, qaydalara, həmçinin öz bədən və düşüncələrində baş verən dəyiçikliklərə adaptasiya prosesini təhlil edərkən istifadə etmək. |
| PTN 7. Ayrı-ayrı psixoloji bilik üzrə məktəblər/cərəyanlar və onların məşğul olduqları problemlər haqqında müfəssəl bilik əldə etmək; bu məktəbləri/cərəyanları müqayisəli şəkildə təhlil edə bilmək; düşüncə və davranışın tədqiqatı baxımından bu məktəblərin/cərəyanların tənqidi təhlilini vermək; psixologiya sahəsində müasir dövrdə hansı araşdırma istiqamətlərinin (və nə üçün) prioritet təşkil etməli olduğu ilə bağlı şəxsi mülahizə yürüdə bilmək. |
| PTN 8. İnsan psixikasının inkişaf dinamikası, şəxsiyyətin psixi prosesləri və psixi xassələrinin ontogenezinin inkişaf xüsusiyyətləri üzrə əsaslı biliklər əldə etmək; müxtəlif yaş dövrlərinə xarakterik olan psixoloji və davranış xüsusiyyətləri, həmçinin, aparıcı fəaliyyət növlərini müəyyən etmək; insanın psixiki inkişafının hərəkətverici qüvvələri, şəraiti və qanunauyğunluqlarını təhlil etmək; insan inkişafı üzrə mövcud nəzəriyyələrə istinad edərək fərdin müxtəlif yaş dövrlərində düşüncə və davranışlarını izah etmək. |

Scanned with CamScanner

| |
|---|
| PTN 9. İnsanlarla onların xarici mühiti arasında olan qarşılıqlı münasibətlər, insanların qavrama və düşüncə prosesinə təsir edən sosial amillər və insanlar arası münasibətlər haqqında bilik və tətbiqi bacarıqlar əldə etmək; fərdin düşüncələrinə, hisslərinə və davranışlarına təsir edən sosial situasiyaları təhlil etmək; şəxsdaxili və şəxslərarası səviyyələrdə baş verən sosial psixoloji prosesləri izah etmək. |
| PTN 10. Hüquq fəaliyyətinin sosial psixoloji aspektlərini izah etmək; istintaq və islah prosesində tətbiq olunan metod və metodologiyaları təhlil etmək; hüquqşünas fəaliyyətini tənzimləyən etika və əxlaq normaları üzrə biliklər əldə etmək; cinayi davarnışın sosial psixoloji səbəblərini araşdırmaq. Cinayi davranışın qiymətləndirilməsinin psixoloji əsasları və cəzanın təyin edilməsi məsələlərində hakimin, dövlət ittihamçısının və vəkilin faliyyətinin kommunikativ və idrakı cəhətlərini tədqiq etmək. |
| PTN 11. Ailənin psixoloji mahiyyəti, ailədaxili münasibətlərin strukturu, ailə tipləri haqqında məlumat əldə etmək; ailə sisteminə təsir edən sosialmədəni amilləri və mühiti araşdırmaq; müxtəlif mədəniyyətlərdə ailənin formalaşmasına və fəaliyyətinə dair tədqiqatları təhlil etmək; ailəsistemində yaranan ailədaxili münasibətlərin dəyişməsini, ailə üzvlərinin bu dəyişikliklərə uğurlu uyğunlaşmasını şərtləndirən amillər və ailədə münagişəli münasibətlərin yaranma səbəblərini təhlil edərək müxtəlif müdaxilə strategiyalarını araşdırmaq. |
| PTN 12. Menecerin səmərəli fəaliyyətini, fərdi və qrup şəklində qərar qəbul etmə prosesinin xüsusiyyətlərini, liderliyi, motivləşdirməni, normaları, dəyərləri və s. şərtləndirən psixoloji amilləri təhlil etmək; idarəetmə prosesində yaranan potensial sosial-psixoloji problemlərin həlli yollarını müəyyən etmək. |
| PTN 13. Siyasi fəaliyyətin və siyasi şüurun mexanizmləri, qanunauyğunluqları üzrə biliklər əldə etmək; siyasət sahəsində şəxsi amillərin rolunu, siyasi liderlik anlayışını, siyasi liderin xüsusiyyətlərini, növlərini və funksiyalarını, kütləvi davranışın mexanizmlərini və formalarını, bu prosesdə emosiyaların rolu və əhəmiyyətini, siyasi kommunikasiyanın psixoloji xüsusiyyətlərini araşdırmaq; qrup problemini, kütlələrin siyasətdə rolunu, seçki kompaniyasının təşkilinin psixoloji mexanizmini, həmçinin siyasi davranışı təhlil etmək. |
| PTN 14. Müasir sahibkarlığın psixologiyası üzrə biliklər və tətbiqi bacarıqlar əldə etmək; insanların bazar sistemi şəraitinə konstruktiv adaptasiya prosesini və buna təsir edən amilləri araşdırmaq; sahibkarlıq fəaliyyətinin inkişafının psixoloji qanunauyğunluqlarını, müasir sahibkarın psixoloji xüsusiyyətlərini, işgüzar situasiyaları təhlil etmək; sahibkarlıq potensialının üzə çıxması və şəxsi potensialın diaqnostikası üzrə tətbiqi bacarıqlara yiyələnmək. |

Scanned with CamScanner

**Fənn üzrə təlim nəticələri (FTN)**

| **“Azərbaycan tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN 3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN 4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN 5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN 6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN 7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər Əliyev və Azərbaycan dili” mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; “Azərbaycan dilində işgüzar və akademik kommunikasıya” fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini |

Scanned with CamScanner

| |
|---|
| öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| | **"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|---|
| | FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| 1. | FTN 2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| 2. | FTN 3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| 3. | FTN 4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| 4. | FTN 5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| | FTN 6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| 5. | FTN 7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| **"MSS anatomiyası və fiziologiyası" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mərkəzi Sinir Sistemin strukturunu və tərkib hissələrini dərk etmək. |
| FTN 2. Sensor sistemin fiziologiyası və funksiyaları üzrə biliklər əldə etmək. |
| FTN 3. Şərti və şərtsiz reflekslərin, yuxunun, yaddaşın, ağrının yaranma mexanizmini mənimsəmək |

Scanned with CamScanner

| |
|---|
| FTN 4. MSS-nin insanın gündəlik həyatında, emosiyalarında və fəaliyyətindəki rolunu təhlil etmək. |
| FTN 5. MSS-i sahəsində əldə edilən bilik və bacarıqları praktik tətbiq edə bilmək |
| FTN 6. Müəyyən psixi xəstəliklərin yaranma səbəbini mərkəzi sinir sistemi prespektivindən dəyərləndirə bilmək. |

| **“ASF və sensor sistemin fiziologiyası” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Ali sinir fəaliyyətinin xüsusiyyətlərini mənimsəmək. |
| FTN 2. Müxtəlif psixi proseslərin fizioloji əsasları üzrə bilik və bacarıqlar əldə etmək. |
| FTN 3. Orqanizmin mühim həyati funksiyalarının sinir tənzimlənməsi haqqında biliklər əldə etmək. |
| FTN 4. Müəyyən qrup psixi xəstəliklərin (nevrasteniya, fobiyalar, bulemiya, anoreksiya, suisid) yaranma səbəbini ali sinir fəaliyyəti prespektivindən dəyərləndirə bilmək. |
| FTN 5. ASF-nin insanın gündəlik həyatı və fəaliyyətində rolunu təhlil etmək. |
| FTN 6. ASF sahəsində əldə edilən bilik və bacarıqları praktik tətbiq edə bilmək. |

| **“Psixologiyada riyazi və statistik metodlar” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Psixoloji məlumatların riyazi təhlilində istifadə olunan əsas anlayışları mənimsəmək. |
| FTN 2. Psixologiyada statistik metodların istifadə sahələrini və statistikanın əsas sahələri (təsviri və inferesial) üzrə bilik və tətbiqi bacarıqlar əldə etmək. |
| FTN 3. İnformasiya emalının kompyuter metodları, məhz SPSS və/və ya STATA proqramından istifadə bacarığını əldə etmək. |
| FTN 4. Riyazi statistika metodlarını öz tədqiqatlarında istifadə etməkdə bilik və bacarıqlar inkişaf etdirmək. |
| FTN 5. Psixoloji fərziyyəni yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadə edə bilmək. |
| FTN 6. Eksperimental, kvazi-eksperimental və korrelyasiyalı tədqiqat dizaynlarının üstün və çatışmayan cəhətlərini dəyərləndirə bilmək. |
| FTN 7. Statistik proqramlardan istifadə, hesabatın hazırlanması və yazılması sahəsində səriştələrə malik olmaq. |

| **“Ümumpsixoloji praktikum” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Psixi proseslərin nəzəri xüsusiyyətlərini, psixi proseslərin öyrənilməsi sahəsində tədqiqat üsullarının istifadəsi xüsusiyyətləri üzrə biliklər əldə etmək. |
| FTN 2. Psixi proseslərin (duyğu, qavrama, diqqət, hafizə, təfəkkür, nitq, təxəyyül) tədqiqi zamanı istifadə olunan əsas üsulları bilmək və müvafiq bacarıqlara yiyələnmək. |
| FTN 3. Psixoloji tədqiqat fəaliyyətinin metodoloji təhlilinin əhəmiyyətini başa düşmək. |
| FTN 4. Psixoloji tədqiqatın fərziyyələrini formalaşdırıb müəyyən etmək. |
| FTN 5. Müstəgil və asılı dəyişənləri, onların ölcü meyarlarını müəyyən etmək. |
| FTN 6. Psixoloji tədqiqatı keçirərkən bu və ya digər qərarların seçilməsinin əsaslarını təhlil etmək. |
| FTN 7. Tədqiqatın məqsəd və vəzifələrinə uyğun üsulları müəyyən edib istifadə etmək bacarığına yiyələnmək. |
| FTN 8. Psixoloji tədqiqatın xüsusiyyətləri və müstəgil reallaşdırılması üzrə bacarıqlar əldə |

Scanned with CamScanner

| |
|---|
| etmək. |
| FTN 9. Tədqiqat nəticələrini müxtəlif vizual qarfiklər və cədvəllərlə təsvir və izah etmək. |
| FTN 10. Tədqiqatın nəticələrinə əsaslanaraq psixoloji yekun hazırlamaq üçün zəruri olan bilik və bacarıqları formalaşdırmaq. |
| FTN 11. Peşakar psixodiaqnostika sahəsində şəriştə əldə etmək. |

| **“Ümumi psixologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Psixi proseslər, psixi hallar, psixi xassələr və davranış haqqında tətbiqi biliklərə yiyələnmək. |
| FTN 2. Psixologiya elminin digər elmlərlə əlagələrini başa düşərək interdissiplinar yanaşmalara üstünlük vermək. |
| FTN 3. Dünyada və Azərbaycanda psixoloji fikrin inkişafını təhlil edib müqayisə etmək. |
| FTN 4. Psixologiya sahəsində tədqiqat üsulları haqqında bilik əldə etmək. |
| FTN 5. Öyrənmə prosesi, bioloji psixoloji proseslər, davranış və ona təsir edən amillər, inkişaf və ona töhvə verən proseslər sahəsində biliklər əldə etmək. |
| FTN 6. İnsanın sensor sisteminin fəaliyyətini araşdıraraq insan beyninin xarici mühitdən məlumatı qəbul edib emal etməsini öyrənərək bu neyron signallarının interpretasiyasında istifadə olunan proseslər haqqında biliklər əldə etmək. |

| **“Eksperimental psixologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Psixologiya sahəsində mövcud eksperimental tədqiqatları təhlil etmək. |
| FTN 2. Psixoloji tədqiqatın metodoligiyası üzrə bilikər əldə etmək. |
| FTN 3. Psixologiyada eksperimental tədqiqatların aparılması və planlaşdırılması üzrə bilik və tətbiqi bacarıqlara yiyələnmək. |
| FTN 4. Psixoloji metodlar və onların tədqiqat imkanları sahəsini araşdırmanı bacarmaq. |
| FTN 5. Psixoloji tədqiqatların aparılması zamanı etik prinsip və standartlara riayət etmək. |
| FTN 6. Müstəqil olaraq eksperimenti aparmağı və planlaşdırmağı bacarmaq. |
| FTN 7. Eksperimentin nəticələrinin müzakirə olunması qaydalarına uyğun hesabat hazırlamaq. |

| **“Psixofiziologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Psixi proseslərin və davranışın fizioloji əsasları haqqında biliklər əldə etmək. |
| FTN 2. Fiziologiya, idrak və emosiyalar arası əlagələrə psixoloji nəzəriyyələri tətbiq etmək. |
| FTN 3. Beyin loblarını və onların əsas funksiyalarını müəyyən etmək. |
| FTN 4. Biopsixoloji tədqiqatlarda beyin fəaliyyətinin müxtəlif ölçü meyarlarını fərləndirə bilmək. |
| FTN 5. Neyronlar arası kommunikasiya prosesinin əhəmiyyətini dərk etmək. |
| FTN 6. Psixofiziologiya sahəsində aktual olan problemləri tədqiq etmək üzrə bacarıqlar əldə etmək. |

| **“Klinik psixologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Ümumilikdə psixi sağlamlıq sahəsində və xüsusi olaraq, klinik psixologiya sahəsində olan maraqları və məqsədlərini aydınlaşdırmağı bacarmaq (bura klient təbəgəsi və tədqiqat |

Scanned with CamScanner

| |
|---|
| sualları aiddir). |
| FTN 2. Psixoterapiya sahəsində mövcüd müxtəlif yanaşmalar üzrə bilik və sadə tətbiqi bacarıqlar əldə etmək. |
| FTN 3. Psixi sağlamlıq sahəsində müdaxilə və qabaqlayıcı (preventiv) tədbirlərin planlaşdırılması və həyata keçirilməsi üzrə bilik və tətbiqi bacarıqlara yiyələnmək. |
| FTN 4. Qeyri-tipik (anormal) davranışın yaranmasının bioloji, psixoloji, ailə mənşəli və sosial mənşəli səbəblərini başa düşmək və mümkün müdaxilə istiqamətlərini potensial səmərəliliyinə görə müqayisə etmək. |
| FTN 5. Qeyri-tipik (anormal) davranışı izah etmək üçün məlumatın toplanması və təhlil olunması sahəsində əsas elmi üsulları müəyyən edərək müqayisə etmək. |
| FTN 6. Orqanik və funksional xəstəliklər arası fərqləri müəyyən etmək. |
| FTN 7. Spesifik təşviş, yuxu, somatoform, affektiv, əhval-ruhiyyə pozuntuları, qidalanma pozuntusu, maddə asılılığı, şəxsiyyət pozuntuları haqqında biliklər əldə edərək onların xüsusiyyətlərini bilmək. |
| FTN 8. Klinik psixologiya sahəsində müasir problemləri tədqiq etmək üçün psixologiyanın müvafiq tədqiqat üsullarından istifadə edərək tədqiqat həyata keçirmək. |
| FTN 9. Etik və qeyri-etik psixoterapevtik müdaxilə təcrübələri haqqında biliklər və tətbiqi bacarıqlar əldə etmək. |

| **"Pedaqoji psixologiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Insan müxtəlifliyini dərk etmək və buna müvafiq davranmaq üzrə bilik və bacarıqlar əldə etmək. |
| FTN 2. Təhsil nəzəriyyələri ilə real sinif təcrübələrini müqayisəli şəkildə təhlil etmə bacarığına yiyələnmək. |
| FTN 3. Koqnitiv inkişafın mühüm mərhələlərini və onlara uyğun yaş dövrlərini müəyyən etmək, tədris müəssisələrində bu məlumatdan səmərəli istifadə yollarını araşdırmaq. |
| FTN 4. Mürəkkəb koqnitiv bacarıqları təkmilləşdirmək üçün müvafiq strategiyaları müəyyən etmək. |
| FTN 5. Öyrənmə prosesinin koqnitiv və emosional sahələrini differensasiya edərək onların səmərəli tədris prosesində rolunu təhlil etmək. |
| FTN 6. Şəxsi, emosional və mənəvi inkişafın əsas aspektlərini və onların tədris prosesində istifadəsi yollarını müəyyən etmək. |
| FTN 7. Davranış və psixikaya təsir edən müxtəlif sosial amillər (mədəniyyət, konformluq, inandırma və təsir etmə, qrup təsiri) üzrə bilikləri tətbiq etmək. |
| FTN 8. Təlim və tərbiyyə müəssisələrində müasir problemləri müəyyən edib müvafiq psixoloji tədqiqat üsullarından istifadə edərək araşdırmaq. |
| FTN 9. Davamlı peşakar inkişafın və sosial məsuliyyətin əhəmiyyətini başa düşərək bu sahədə əldə olunan bilik və bacarıqları tətbiq etmək. |

| **"İnkişaf və yaş psixologiyası" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Hər bir fərdin özünə məxsus və unikal maraqlarının, bacarıqlarının və xarici görünüşlərinin olması ilə yanaşı onların oxşar cəhətlərinində olmasını öyrənmək. |
| FTN 2. İnkişaf mərhələlərinə məxsus sosial-emosional, koqnitiv, fiziki xüsusiyyətlərin inkişafını müəyyən edib izah editmək. |

Scanned with CamScanner

| |
|---|
| FTN 3. İnkişaf prosesı zamanı genetika və ətraf mühitin rolu və əhəmiyyətini təhlil etmək. |
| FTN 4. Psixi inkişafın hərəkətverici qüvvələri, şəraiti və qanunauyğunluqlarını müəyyən edib davranışın izah olunması və proqnozlaşdırılmasına tətbiq etmək. |
| FTN 5. Müxtəlif yaş qruplarını tədqiq etmək məqsədi ilə müvafiq psixoloji tədqiqat üsullarından istifadə etmək. |
| FTN 6. Bu sahədə mövcud tədqiqatları onların metodologiyasına əsaslanaraq tənqidi təhlil etmək. |

| **“Sosial psixologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Düşüncə prosesində baş verən xətaları, subyektivliyi başa düşərək onları minimuma çatdırmaq üçün müvafiq strategiyaları tətbiq etmək. |
| FTN 2. Stereotiplər, qərəzli münasibət və müxtəlif mənşəli ayrıseçkiliyin yaranma səbəblərini və bunlar arasında olan əlagələri başa düşmək və psixoloji ədəbəyyatda mövcud olan strategiyalara istinad edərək həlli yollarını araşdırmaq. |
| FTN 3. Anti-sosial və müsbət sosial yönümlü davranışın yaranma səbəblərini təhlil etmək və anti-sosial davranışın qarşısının alınması yollarını araşdırmaq. |
| FTN 4. Qrupların insanın davranışına təsirini başa düşmək və qrupun mənfi təsirinin aradan qaldırıması üzrə strategiyalardan istifadə etmək. |
| FTN 5. Təsir və inandırma proseslərinn prinsiplərini başa düşmək və müsbət sosial dəyişikliklər əldə etmək məqsədi ilə tətbiq etmə bacarıqlarına yiyələnmək. |
| FTN 6. Sosial psixologiya sahəsində maraqlı olan problemləri həll etmək üçün sosial-psixoloji tədqiqat həyata keçirmə bacarığını əldə etmək. |

| **“Hüquq psixologiyası” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Şəxsiyyət haqqında ümumi anlayış formalaşdırmaq, insanın təbiəti və onun varlığının xüsusiyyətləri, o cümlədən, şəxsiyyəti tarixi təkamülün və ontogenetik inkişafın məhsulu kimi dərk etmək. |
| FTN 2. Hüquq fəaliyyətinin psixoloji aspektləri, istintaq və islah prosesində istifadə olunan metod və metodologiyalar, hüquqşünas fəaliyyətini tənzimləyən etika və əxlaq normaları, eyni zamanda hüquqi fəaliyyətə verilən sosial tələblər üzrə biliklər əldə etmək. |
| FTN 3. Hüquq psixologiyasının əsas problemləri və onun əsas sahələri ilə tanış olmaq. |
| FTN 4. Kriminal psixologiyada tətbiq olunan metodların işlənmə qaydasını bilmək. |
| FTN 5. Hüquqşünasın peşə fəaliyyətinin (profissioqrammasının) tərkib hissələrini araşdırmaq. |
| FTN 6. Qrup cinayəti və mütəşəkkil cinayətkarlıgın psixoloji əsaslarını təhlil etmək. |
| FTN 7. Yetkinlik yaşına çatmayan qanunpozanların və yeniyetmələrin cinayət davranışının psixoloji səbəblərini araşdırmaq. |
| FTN 8. Məhkum şəxsiyyəti və onun psixoloji xüsusiyyətləri üzrə biliklər əldə etmək. |
| FTN 9. Hüquq psixologiyası sahəsində aktual olan problemləri sosial-psixoloji tədqiqat üsullarından istifadə edərək tədqiq etmək bacarığına yiyələnmək. |

| **“Ailə psixologiyası” fənni üzrə təlim nəticələri (FTN))** |
|---|
| FTN 1. Ailənin inkişaf mərhələləri, bunların xüsusiyyətləri və hər mərhələyə xas olan |

Scanned with CamScanner

| |
|---|
| ünsiyyət modelləri üzrə biliklər əldə etmək. |
| FTN 2. Ailənin şəxsiyyətin inkişafı və formalaşmasında olan rolunu dəyərləndirmək. |
| FTN 3. Ailə daxili münagişələrin yaranma səbəblərini və mümkün həlli yollarını təhlil etəməyi bacarmaq. |
| FTN 4. Nəsillərarası əlagələrin ailə üzvlərinə təsirini təhlil və müəyyən etməyi bacarmaq. |
| FTN 5. Ailə ilə psixoloji işin təşkilinə dair etik prinsiplərdən müvafiq şəkildə istifadə etmə bacarığını inkişaf etdirmək. |
| FTN 6. Ailədaxili münagişələr zamanı istifadə olunan psixoloji yanaşmalara istinad edərək müdaxilə planı hazırlamaq bacarığını əldə etmək. |
| FTN 7. Ailə psixologiyasında aktual olan problemləri psixoloji tədqiqat üsullarından istifadə edərək tədqiq etmə bacarığını inkişaf etdirmək. |

| **"Menecment psixologiyası" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. İdarəetmənin nəzəri-metodoloji əsaslarını öyrənərək bu sahədə müxtəlif konsepsiyalar, əsas anlayışlar və menecment psixologiyasının qanunauyğunluqlarını bilmək. |
| FTN 2. İdarəetmə fəaliyyətinin psixoloji xüsusiyyətlərini müəyyən edərək təhlil etmək. |
| FTN 3. İdarəetmə prosesində əsas sosial-psixoloji problemləri öyrənib onların səmərəli həlli yollarını müəyyən etmə bacarığına yiyələnmək. |
| FTN 4. İdarəetmə fəaliyyətinin təhlili zamanı mütləq şəkildə fərd və qrupun psixoloji xüsusiyyətlərinin nəzərə alınması üzrə səriştəliyi olmaq. |
| FTN 5. Menecerin psixologiyasının əsaslarını bilmək. |
| FTN 6. İdarəetmə fəaliyyəti zamanı şəxslərarası, qruplararası münagişələrin yaranma səbəblərini və səmərəli həlli yollarını tətbiq etməyi bacarmaq. |
| FTN 7. Menecment psixologiyası sahəsində aktual olan mövzular üzrə psixoloji tədqiqat keçirmə bacarıqlarını inkişaf etdirmək. |

| **"Siyasi psixologiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Siyasi və psixoloji nəzəriyyələri təhlil etmək. |
| FTN 2. Siyasi şəxsiyyətin formalaşması, siyasi sosiallaşma prosessləri sahəsində biliklər əldə etmək. |
| FTN 3. Böyük qrupların (kütlə) davranışının psixoloji aspektlərini təhlil etmə bacarığına yiyələnmək. |
| FTN 4. Əhəmiyyətli siyasi hadisələrə psixoloji bilikləri tətbiq edərək onları təhlil və izah etmək. |
| FTN 5. Siyasi psixologiya sahəsinin digər elm sahələri ilə əlagələrini təhlil etmək. |
| FTN 6. Siyasi psixologiya sahəsində aktul mövzular üzrə psixoloji tədqiqat üsullarından istifadə edərək tədqiq etmə bacarığını inkişaf etdirmək. |

| **"Biznes psixologiyası və sahibkarlıq" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Sahibkarlıq fəaliyyətinin sosial-psixoloji xüsusiyyətləri (yerli və beynəlxalq səviyyələrdə), sahibkarlıq fəaliyyətində gender məsələsi, sahibkarlıq mühitini formalaşdıran sosial-iqtisadi amillər, biznes fəaliyyətində dəyərlər haqqında biliklər əldə etmək. |
| FTN 2. Fərdi adaptasiya strategiyalarını müəyyən etmək. |

Scanned with CamScanner

| |
|---|
| FTN 3. Biznes sahəsində uğurlu fəaliyyətə şərait yaradan və ya buna mane olan şəxsi keyfiyyətləri müəyyən edib təhlil etmək. |
| FTN 4. Sahibkarlıq sahəsində potensialın, bacarıqların müəyyən olunması üçün müvafiq metodikalardan istifadə bacarıqlarını inkişaf etdirmək. |
| FTN 5. Biznes planı müzakirə edərək onu hazırlama bacarığına yiyələnmək. |
| FTN 6. Sahibkarlıq sahəsində aktual olan problemləri tədqiq etmək üzrə bilik və bacarıqları inkişaf etdirmək |
| FTN 7. Marketinq tədqiqatlarının psixologiyasını bilmək, imijin qurulması, brendin inkişaf etdirilməsi və işçi heyyətin motivasiya edilməsi sahəsində sistemli bcarıqlara malik olmaq. |

| **"Mülki müdafiə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək; |
| FTN 2. Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| FTN 3. Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| FTN 4. Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| FTN 5. Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
| FTN 6. FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |

| **"Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| FTN 2 Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında |

Scanned with CamScanner

| |
|---|
| biliklərə yiyələnir. |
| FTN 3. İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| FTN 4. Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| FTN 5. Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| FTN 6. Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| FTN 7. Proqramlaşdırma bacarığına yiyələnir. |
| FTN 8. Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| FTN 9. Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| FTN 10. İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| FTN 11. Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| FTN 12. Verіənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |

| **Fəlsəfə** |
|---|
| **FTN 1** Tənqidi və özünütənqidi düşünməyi, təhlil əsasında zəruri hallarda düşüncə tərzini dəyişməyi, ortaya çıxan problemlərə yeni yollar və yeni həllər təklif etməyi bacarır. |
| **FTN** Genişmiqyaslı (konseptual) düşünməyi, əhəmiyyətli faktiki materialı sistematik şəkildə təqdim etməyi bacarır. |
| **FTN 3** Mədəniyyətlərarası əməkdaşlıq qabiliyyətini inkişaf etdirir, digər görüşlərə anlaşıqlı və dözümlü münasibət göstərməyi bacarır. |
| **FTN 4** Mənəvi dəyərlərin müsbət sisteminə əsaslanan fəal vətəndaşlıq mövqeyi nümayiş etdirməyi bacarır. |
| **FTN 5** Tənqidi düşünmə bacarıqlarına sahib olur; beynəlxalq, regional və lokal mühitdə siyasi, sosial-iqtisadi və mədəni proseslərin hərtərəfli və situasiya təhlilini aparmağı bacarır. |
| **FTN 6** Gələcəyə yönəlmiş yanaşmalar və qərarlar hazırlayır; problemlərə sistemli və qlobal yanaşma tətbiq etməyi bacarır. |

Scanned with CamScanner

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının təlim nəticələrinin əldə olunmasına fənnlərin necə dəstək verdiyini müəyyən etməlidir.

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN10 | PTN11 | PTN12 | PTN13 | PTN14 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | | | |
| | Azərbaycanın tarixi | X | | | | | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | | | |
| İxtisas fənləri | Mərkəzi sinir sisteminin (MSS) anatomiyası və fiziologiyası | | | X | | X | | X | | | | | | | |
| | ASF və sensor sistemin fiziologiyası | | | X | | | X | X | | | | | | | |
| | Psixologiyada riyazi və statistik metodlar | X | X | X | X | | | | | | | X | | | |
| | Ümumpsixoloji praktikum | | | X | X | X | X | X | | | | | | | |
| | Ümumi psixologiya | | | | X | X | X | X | X | | | | | | |
| | Eksperimental psixologiya | | | | | X | X | X | X | | | | | | |
| | Psixofiziologiya | | | | X | X | X | X | X | | | | | | |
| | Klinik psixologiya | | | | X | X | X | X | X | | | | | | |
| | Pedaqoji psixologiya | | | | | | X | | X | X | | | | | |
| | İnkişaf və yaş psixologiyası | | | | | | X | | X | X | | X | | | |
| | Sosial psixologiya | | | | | X | X | | X | X | | | | X | |
| | Hüquq psixologiyası | | | | | | | | | | X | | | | |
| | Ailə psixologiyası | | | | | | | | | | | X | | | |
| | Menecment psixologiyası | | | | | | | | | | | | X | | |
| | Siyasi psixologiya | X | | | | | | | X | | | | | X | |
| | Biznes psixologiyası və sahibkarlıq | | | | | | | | | | | | | X | X |

Scanned with CamScanner

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Müasirinformasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi | X | X | | | X | X | X | | X | | X | | | X |
| | Mülki müdafiə | | | | | | | | | | | | | | |
| | Fəlsəfə | | | | | X | X | | | X | | | | | X |
| | | | | | | | | | | | | | | | |

Scanned with CamScanner